**Arxipastırlara, keşişlərə, dyakonlara, Rus Pravoslav Kilsəsinin rahiblərinə və bütün sadiq övladlarına**
**Moskva və bütün Rusiyanın Patriarxı KİRİLLİN**
**Pasxa müraciəti**

**Allahın sevimli Arxipastır Həzrətləri, möhtərəm keşişlər və dyakonlar, Allahsevər rahib və rahibələr, əziz qardaş və bacılar!**

## İSA MƏSİH DİRİLİB!

Xilaskarın Tabutdan ehya edib dirilməsi sevinci ilə coşub – daşan qəlbdən bu möhtəşəm və işıqsaçan bir gündə sizi Tanrının Pasxası münasibətilə ürəkdən təbrik edirəm və hər birinizi həyatın əbədiliyini təsdiqləyən sözlərlə salamlayıram.

Bu gün biz böyük iman süfrəsinə, ruhun böyük təntənəsi bayramına dəvət olunuruq. Tanrının dünyaya gələrək əzablar çəkmiş və xaçda ölüm şərbətini dadmış Oğlu Səma Atasının hökmü ilə qələbə ilə tabutundan qalxmışdır! İsa dirilmişdir və "*ölüm məğlub olmuşdur*" (1 Kor. 15, 54). O ehya etmişdir və bütün Kainat sevinc içindədir! Tanrı cəhənnəmi ləğv etmiş və iblisin hakimiyyətini darmadağın etmişdir. Bütün bunları insanı sevən Tanrı həyata keçirmişdir ki, *Qanı ilə bizim bağışlanmamıza və günahlarımızın əfv olunmasına səbəb olmuş İsa Məsih vasitəsilə bizi övladlığa götürsün* (Ef. 1, 4 – 5; 7).

Məsihin ölüm üzərində zəfər çalması təkcə mənəvi deyil, həm də fiziki reallıqdır. Tanrı İsa həqiqətən bütün insanların nicatı naminə cismi ilə dirilmişdir. Onun bu dirilməsi ilə ölüm öz labüdlüyünü itirmiş və Məsihə iman gətirənlər üçün əbədi həyata qovuşmaq üçün, səmaya, İlahi səltənətə açılan qapı olmuşdur.

Təsadüfi deyil ki, Məsih naminə əzabla həlak olan insanlar hər cür əzab-əziyyəti mətanətlə qarşılamışdır. Əvvəllər hətta ən böyük ariflər vəfat etmiş şəxslər üçün yas tuturdusa, İsa Məsihin dirilməsindən sonra ölüm daha onlar üçün qorxulu deyildi. Müqəddəs dahi Afanasi yazır ki, *bu gündən etibarən bütün Məsihə iman gətirənlər ölümdən zərrə qədər də qorxmur və çox gözəl anlayırlar ki, öldükdən sonra onlar heç olmur, əksinə dirilmə vasitəsilə əbədiyyətə qovuşurlar* (Tanrının Sözdə təcəssüm etməsi və bədəndə bizə gəlməsi barədə). XX əsrdə dinin təqib olunduğu illərdə Rus Kilsəsinin mübəlliğ tacını qorxmadan başına qoymuş yeni şəhidləri bizim üçün bariz nümunədir.

Bu gün, dünyanın İncildəki rəvayətdə barəsində nəql olunan ağılsız varlıya (bax, Lk. 12, 16 - 21) oxşamağa can atdığı, rahatlığın, təmtərağın və uzun yaşamanın, demək olar ki, əsas insani dəyər elan olunduğu bir zamanda biz – Xilaskarın tələbələri və ardıcılları həvari Pavelin ardınca cəsarətlə şəhadət veririk: *bizim üçün həyat Məsihdir* (Flp. 1, 21), ölüm isə - mövcudluğun sonu deyil.

Deyirik və buna inanırıq, çünki bilirik ki, Tanrı insan ruhunu əbədiyyət üçün xəlq edib.

Çox vaxt bu fani dünyanın təlaş və həyəcanına qərq olmuş bizlər həyatımızda İlahi mövcudluğun islah edici gücünü görmək kimi mənəvi məqamdan uzaqda qalırıq. Amma pasxa tamamilə xüsusi və fərqli bir dövrdür. Bu günlər heç nə ilə müqayisə olunması mümkün olmayan pasxa sevinci hətta havaya da hopub, Tanrı sevgisi və mərhəməti isə hər bir insanı əhatə etmişdir.

Bu möhtəşəm və nurani bayrama daxil olarkən biz təkcə sözdə deyil, əməldə də insanları ehya etmiş Tanrı Məsih vasitəsilə əldə etdikləri o böyük nemətə şəhadət gətirməliyik. Bizi əhatə edənlərlə İncil müjdəsi ilə bölüşək, yaxınlarımıza öz sevgimizi, qayğı və diqqətimizi hədiyyə edək, bizim yardımımıza və təsəllimizə ehtiyacı olanlar üçün xeyirli işlər görək. Biz yalnız dildə və qəlbdə şükr etməklə Tabutdan dirilib qalxmış Xilaskarı mədh edərək baş vermiş pasxa möcüzəsinin varislərinə çevrilirik və cəsarətlə özümüzü bizim hamımıza sonsuz məhəbbətini nazil etmiş Ulu Tanrının oğlu və qızı hesab edirik.

Sizi Müqəddəs Pasxa bayramı münasibəti ilə ürəkdən təbrik edərək yenə də təkrar olaraq müjdə vermək istəyirəm:

**İSA MƏSİH DİRİLİB**!

**MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRIARXI**

***Moskva***
***Məsih Pasxası***
***2018-ci il.***